# ƏDƏBİYYAT

UOT 821.111(73)

**Səbriyyə İsmizadə**
***ADU***
***sabriyya@inbox.ru***

## TED ÇANIN "SƏNİN HƏYAT TARİXÇƏN" ƏSƏRİNDƏ ELMİ FANTASTİKA

**Açar sözlər:** *elmi fantastika, Asiyalı amerikan, dilçilik, heptapod, zaman amili.*
**Key words:** *science fiction, Asian American, linguistics, heptapod, time factor.*
**Ключевые слова:** *научная фантастика, американец азиатского происхождения, лингвистика, гептапод, фактор времени.*

Texnologiyanın sürətlə inkişaf etdiyi, reallıqdan çox fantastik xəyalların cazibədar olduğu XX əsr təlatümlü dövr olmaqla yanaşı, ədəbiyyat tarixində yeni-yeni ədəbi istiqamətlərin və janrların möhkəmlənməsi ilə də yadda qaldı. Bəşər tarixinin hələ qədim dövrlərindən müxtəlif aləmlərdəki həyatı xəyal edən, mövcud olmayan mistik məxluqların varlığına inanan, gələcəklə bağlı fövqəlreal arzularla yaşayan insan XX əsrin müharibə gerçəyindən qaçmaq üçün də bu xəyallara sığınmağı seçdi. Nəticə etibarı ilə ilkin cücərtiləri hələ şifahi ədəbiyyata əsaslanan və XIX əsrdən başlayaraq ədəbi janr kimi formalaşmağa başlayan fantastika janrına maraq daha da artdı.

Fantastika janrı insanın müdrikləşərək texniki inqilaba imza atması və gələcək dünyanı dəyişmək istəyi ilə bağlıdır. Fantastika janrına maraq da məhz insanın gələcəyə, fərqli dünyalara olan marağından, texnologiyanın, telepatiyanın yardımı ilə məhvə doğru gedən dünyanı xilas etmək ümidindən doğur və mövcud gerçəliklərindən qaçmaq istəyinə əsaslanır. "Bu növ əsərlərdə fantastik motiv, ünsür və elementlər problemi daha geniş zaman və məkan kontekstində görməyə imkan verir. Ona görə də fantastik əsərlərdə qabardılan problemlər bir millətin, dövlətin problemləri çərçivəsinə sığışmır və bəşəri, qlobal, millətlərarası xarakter daşıyır" [8, s.10]. Tədqiqatçının fik-

rinə əsaslanaraq deyə bilərik ki, fantastika janrı sərhəd tanımır, bütün dünyanı, bütün bəşəriyyəti əhatə edir.

Fantastika ədəbiyyatın ən gənc janrlarından olmağına baxmayaraq məhsuldarlığı və aktuallığı ilə seçilir. Klassik dövrün tendensiyalarından sıxılan müasir oxucu yaşadığı xaotik dünyanın reallığından bir müddətlik də olsa uzaqlaşmaq üçün fantastik ədəbiyyata üz tutur. "Fantastikada təsvir olunan gerçəklik və ya onun elementləri reallıqda yoxdur və hazırkı dövrdə də mümkün deyil" [4, s.6]. Lakin keçmişə, gələcəyə, fərqli aləmlərə səyahət, hazırkı dünyanın problemlərinin mistik varlıqlar və uydurulmuş mühit vasitəsilə göstərilməsi, öz dövrünü qabaqlamaq imkanları, həyata keçirə bilmədiyi nailiyyətləri xəyal etmək şansı çağdaş insan üçün cəlbedici faktorlardır.

Fantastika janrının qızıl dövrü XX əsr hesab olunduğu kimi, bu janrın ən ümdə nümunələri də Amerika ədəbiyyatına məxsusdur. R.Haynlayn, A.Azimov, R.Bredberi, S.Kinq, K.Vonnequt, T.Çan kimi yazıçılar yazdıqları ədəbi nümunələr ilə nəinki yaşadıqları dövrün, həmçinin proqnozlar verməyə cəhd etdikləri gələcək zamanın da fövqündə dayanırlar. Bu yazıçıların hər birinin fərqli həyat hekayələri onları fantastika janrına yönəltmiş və hər biri özünəməxsus üslub və bədii vasitələrlə maraqlı ədəbi nümunələr yaratmışdırlar.

Müasir dünyanın əsas siyasi və mədəni prioriteti olan multikulturalizm ədəbiyyata da təsirsiz ötüşməmiş və maraqlısı budur ki, iki və daha artıq mədəniyyətin daşıyıcısı olan yazıçıların əksəriyyəti əsərlərində fantastik, magik elementlərə daha çox müraciət etmişdirlər. İngilis ədəbiyyatında Salman Rüşdi buna bariz nümunə olduğu halda, Amerika ədəbiyyatında dörd nüfuzlu mükafatın laureatı Ted Çanı göstərmək olar.

Çin əsilli Ted Çanın ailəsi Çin Kommunist İnqilabından sonra Amerikaya mühacirət etmiş və o, Nyu Yorkda anadan olmuşdur (1967). Braun universitetinin kompüter elmləri fakültəsini bitirən Ted Çan proqram təminatı sahəsində texniki yazar kimi fəaliyyət göstərmişdir. K.Vonnequt texniki yazarlar barəsində deyir: "...yazılarında özləri haqqında demək olar ki, heç bir iz qoymamaq üçün təlimatlandırılıblar. Bu onları yazıçılar dünyasında qəribə göstərir, çünki bu dünyadakı bütün mürəkkəb ləkəli yazıqların hamısı özləri haqqında oxucuya nəsə deyir" [5, s.3].

Məktəb yaşlarından hekayə yazmağa maraq duyan Ted Çanın 1990-cı ildə nəşr etdirdiyi debüt romanı "Vavilon qalası" gözlənilmədən "Nebyula", "Hyüqo" və "Lokus" ədəbi mükafatlarına layiq görülmüşdü. Bu uğurdan ilhamlanan yazıçı bir-birinin ardınca əsərlər çap etdirir və XX əsrin sonlarında dünya şöhrətli fantastika yazarına çevrilir. Cazibədar yazı texnikası tez bir zamanda məşhurlaşmağına səbəb olduğundan haqlı olaraq deyə bilə-

rik ki, yazıçının qazandığı mükafatların sayı, bəlkə də, yazdığı əsərlərin sayından daha çoxdur. Müəllifin ədəbi tənqidçisi Con Klut da bu fikri təsdiqləyərək qeyd edir ki, "Ted Çanın əsərləri sərt və aydın üslubuna görə oxucu üzərində maqnit təsirə malikdir" [1].

1990-cı ildə ilk hekayəsi "Babil qalası"nın nəşri ilə Ted Çan dövrünün elmi fantastika yazıçıları sırasına öz adını da yazdı. T.Çanın ədəbi yaradıcılığının spesifikası afro-amerikalı tədqiqatçı İsaya Lavenderin "irqi fərqliliklər Amerika elmi fantastikasının sosial strategiyasının fundamental hissəsini təşkil edir" [7] fikrini təkzib edir. Belə ki, yazıçının ədəbi dünyasının istiqamətini araşdırdıqda məlum olur ki, o, həmkarları Çang-ri Li və Suzan Çoidən fərqli olaraq əsərlərində Asiya-Amerika mövzusunu, demək olar ki, vurğulamır. Kiçik istisnaları nəzərə almasaq yazıçının əsərlərində onun Asiya mənşəli amerikalı olmağına aid nüanslar, demək olar ki, yoxdur. Asiyalı amerikan ədəbiyyatçısı Betsi Huanq iddia edir ki, "Asiya mənşəli amerikalı elmi fantastlar əsərlərində tez-tez sosial vəziyyətlərindən, xüsusən də immiqrasiya, assimilyasiya problemlərindən bəhs edir, elmi fantastik ədəbiyyatda oriyentalizm və texno-oriyentalizm istilahlarının mövcudluğunu vurğulayırlar" [6, s.142-154]. Lakin Ted Çanın əsərlərində vurğuladığı məqamlar 'irqi asimmetriya' kimi dəyərləndirilən iki mədəniyyət daşıyıcısı meyarından daha əhəmiyyətlidir. Onun əsərlərində oxucuya dünyanı yenidən düşünməyə ilham vermək üçün problemlərin kodlaşdırıldığını görmək mümkündür. Ted Çan personajların kainatla bağlı dünyagörüşünü genişləndirən bir vasitəni necə kəşf etdiklərini təsvir edir.

Yazıçının əsərləri texnoloji eradakı kainatın mükəmməlliyinə dair problemlərə diqqəti çəkir. Texno-dünyadakı qarşıdurmanın mərkəzində artıq insan faktoru yoxdur, harmoniya pozulub, kainatlar toqquşur, texnika və telepatik varlıqlar yeni qarşıdurma ocaqları yaradır. Bununla da T.Çan oxucunun diqqətini cəmiyyətin mövcud problemlərindən yayındıraraq, onu digər dünyaları düşünməyə vadar edir. Xüsusən də öz irqindən olan oxucusunun diqqətini müstəmləkəçi baxışından uzaqlaşdıran yazıçının tədqiqatçısı Şeril Vintin dediyi kimi, "o, əsərlərində ardı-arası kəsilməyən məntiqli nəticələri təqib edir" [10]. Həqiqətən T.Çanın ədəbi üslubunu tədqiq edən bütün şərhçilər onun ədəbi fəndinin xırdacıl, dəqiq və ardıcıl olduğunu vurğulayırlar.

Ted Çan intellektual pritçanın ustadı hesab olunur. "72 hərf", "Cəhənnəm tanrı olmayan yerdir" və "Sənin həyat tarixçən" yazıçının daha çox müsbət rəy alan əsərləridir. Daha səkkiz hekayənin yer aldığı topluya daxil olan "Sənin həyat tarixçən" fantastik povestinin motivləri əsasında 2016-cı

ildə kanadalı rejissor Deni Vilnev tərəfindən "Gəliş" ("Arrival") adlı film çəkilib.

1998-ci ildə işıq üzü görən və 1999-2005-ci illərdə beş müxtəlif adda ədəbiyyat mükafatına layiq görülən "Sənin həyat tarixçən" əsərində yazıçı qəhrəmanlarının heç birinin irqi mənsubluğunu vurğulamır. İki istiqamət üzrə qurulan təhkiyənin baş qəhrəmanı dilçi professor Luiz Benksdir. Təhkiyənin birinci istiqamətində baş obrazın iyirmi beş yaşında ölən qızı ilə olan keçmiş münasibətləri barədə məlumat verilir. İkinci istiqamət Luizin qızının atası fizik Qeri ilə çoxsaylı alimlər arasından seçilərək insanlarla təmasa girən yadplanetlilərin dilini öyrənməyə cəhd etməsindən bəhs edir. Əsərin əsas süjeti ikinci istiqamət üzərində qurulub. 'Sərt' elmi fantastik üslubun təsvirləri və ekstrapolyasiyasını əhatə edən, bəzən fizikadan gələn prinsipləri daha çox vurğulayan əsər, əsasən dilçilikdə 'birdilli kəşf' metodlarına və ya vasitəçi bir dili paylaşmayan subyektlər arasındakı dilin öyrənilməsinə diqqət yetirir və beləliklə yazıçı iki "paradoksal" mədəniyyəti (Asiya və Amerika) 'yumşaq' (dilçilik) və 'sərt' (fizika") elmlər arasındakı əlaqə ilə birləşdirir. "Təhkiyə quruluşunda dəqiq qənaətlər əldə edən elmi öz 'onurğa' sütunu hesab edən xəyali ədəbiyyat forması olan" [9] 'sərt' elmi fantastika janrı ilə T.Çan ədəbiyyat, dilçilik və fizika elmləri arasındakı sərhədləri dağıtmağa çalışmışdır.

Baş verəcək hadisələri öncədən bilən, onları dayandırmaq və ya törətmək iqtidarında olan yadplanetliləri araşdırdıqca Luiz onların düşüncə tərzinin, xüsusilə zamanla bağlı fikirlərinin insanlardan köklü şəkildə fərqləndiyini başa düşür və getdikcə o özü də dəyişməyə başlayır. Əsərdə keçmişlə gələcəyi qüsursuz birləşdirən zamanı dərketmə anlayışı var. Ted Çanın sələfi Robert Haynlayn zaman anlayışını əsasən sosioloji amillərlə şübhə altına qoymağı hədəf seçdiyi halda Çanın ədəbi dünyasında istənilən fərd gələcəyinə toxunmaq iqtidarındadır.

Əsərin süjetinə əsasən qabaqcıl texnologiyaya sahib olan yadplanetlilər 2001-ci ildə qara obeliski xatırladan kosmik gəmilərlə yer üzündə peyda olurlar. Belə ki, 'Güzgü' adlandırılan yadplanetli qurğulardan ABŞ ərazisinə 9-u, ümumilikdə isə Yer kürəsinə 112-si eniş etmişdir. Müəllif bu gəlişi bəşəriyyətin gələcəyi və planetlərarası münasibətlərin həll olunması kimi ciddi bir problem olaraq təqdim edir.

ABŞ Dövlət Departamenti yadplanetlilərin gəliş məqsədini öyrənmək üçün tez-tez fövqəladə iclaslar keçirir. " – Sözsüz, onların uzun yol keçərək ta yerə kimi gəlib çıxmasında əsaslı səbəbləri var, – diplomat dinamikdən çıxan dəmir səslə bildirdi, – Hər şey bir yana, şükür səmalara ki, bu,

planetimizin fəthi deyil. Bəs onda nədir? Və kimdir onlar? Kəşfiyyatçılar-mı? Antropoloqlar, ya missionerlər? İstənilən halda onlara təklif edəcəyimiz nəsə olmalıdır. Əgər hər iki tərəf özünü layiqincə aparsa, onda heptapodlar da, biz də sağ qalarıq" [3, s.70]

Bu işə yaxından cəlb olunan linqvist Luiz və Qeri mütəmadi olaraq heptapodlarla videokonfranslar təşkil edirlər və belə məlum olur ki, heptapodlar da səbrlə və təmkinlə dillərini 'yerlilərə' öyrətməkdə maraqlıdırlar. Polkovnik Veber hər dəfə israrla "yadplanetlinin danışığının konteksti nədir?" soruşanda Luiz "Onlarda elə səslər var ki, insan qulağı eşidə bilmir. Axı eşitmə sistemimiz heç də ideal akustik alət deyil, yalnız insan qırtlağının çıxara biləcəyi səsləri ayırd etmək üçün yaradılıb. Bu halda yadların söhbətini anlamaq üçün bizə sonoqraf lazımdır" [3, s.13] cavabını verir. Beləcə heptapod adlandırdıqları yadplanetlilərin dilini müəyyənləşdirmək üçün laboratoriyanı daha müasir cihazlarla təchiz etməyə başlayırlar. Heptapodların yazılı və şifahi dili köklü şəkildə fərqləndiyindən dəqiqlik üçün Luiz onları "Heptapod dili B" (yazılı), "Heptapod dili A" (şifahi) adlandırır. Hətta o heptapodların yazısını ərəb xəttatlığına bənzədərək iki yazı növü arasında əlaqə qurmağa çalışır, lakin yadplanetlilərin dilinin heç bir insani təfəkkürə uyğun olmadığı qənaətinə gəlir.

Luiz və digər tədqiqatçıların heptapodlardan mütəmadi olaraq niyə gəldiklərini soruşmaqlarına rəğmən onlar sadəcə 'baxmaq' və 'tamaşa etmək' cavabını verirlər. Lakin heç də sadəcə maraq naminə gələnə oxşamırlar. Bəzən bəşəriyyət üçün çox mühüm olan sualları ya cavabsız qoyur, ya da yersiz formada cavablandırırlar.

Heptapodlarla ünsiyyəti həyat tərzinə çevirmiş Luiz zamanla onların istedadının bütünlüklə özündə inkişaf etdiyini anlayır. "Ən maraqlı fakt bu idi ki, "Heptapod B" zamanla düşüncə tərzimi dəyişirdi. Fikirlərim qrafik kodlaşdırmanı mənimsəməyə başlamışdı. İşin qızğın vaxtında sanki bir neçə saniyəlik transa düşürdüm" [3, s.68-69]. Əsərin ana xəttini təşkil edən bu məqam məhz Sepir – Uorfun fikirləri ilə açılır. Belə ki, Sepir – Uorf linqvistik fərziyyəsi kimi tanınan nəzəriyyədə güman edilir ki, "dil quruluşunun onun daşıyıcısının dünyagörüşü və anlayış dərəcəsinə, eləcə də koqnitiv proseslərinə birbaşa təsiri var. Məlum təsir zamanla insanın düşüncələrini dəyişərək həyat tərzinə çevrilir" [2].

Heptapodların dilini öyrənəndən sonra dəyişən Luiz xəyali olaraq gələcək ilə telepatik əlaqə qurur. Artıq yadplanetlilər Yer kürəsini tərk etsə də, onların Luizə təsiri dilçinin gələcəklə bağlı qorxularının yaranmasına səbəb olur. Gələcək zamanda gördükləri Luizə xoşbəxtlik vəd etmir: gələcəkdə

heptapodlarla bağlı ortaq tədqiqat apardığı Qeri onun həyat yoldaşı olur, lakin bir müddət sonra qızını və Qerini itirir. Bu səbəbdən də o, yaşadığı indiki həyatındakı hadisələri ən incə detalı ilə əbədi olaraq yaddaşına həkk etməyə çalışır. Məlum olur ki, yadlarla fərqlilik yalnız dildə deyil, zaman anlayışına münasibətdə də mövcuddur. Onlar həyatlarında nəyin baş verəcəyini öncədən bilsələr də bu onlara təsir etmir. Luiz isə öz gələcəyində baş verəcək fəlakətləri bilə-bilə indiki zamanda yaşamaq məcburiyyətindədir.

Əsərin reprezentasiyasından da məlum olduğu kimi təhkiyədəki əsas mövzulardan biri zaman faktorudur və yazıçı H.Uelsin "Zaman maşını" əsərindəki zamanda səyahət nəzəriyyəsinə əsaslanaraq keçmiş, indiki və gələcək zaman arasında əlaqə qurur. Təhkiyənin digər təhlil istiqaməti isə, sözsüz ki, heptapod dili və onun insan şüuruna təsirinə əsaslanır.

Tədqiqatçı Mark Rouz "Yadplanetlilərlə görüş" (1981) adlı kitabında "elmi fantastikanın XIX əsrdə dini inancın böhranı və güclü texnologiyaların inkişafı ilə başladığını" iddia edir və nəticədə qeyd edir ki, "janr tez-tez mənəvi və maddi aləm arasında vasitəçi rolunu oynayır" [11].

Ted Çanın "Sənin həyat tarixçən" əsəri də məhz bu gerçəkliyə əsaslanır. Yazıçı oxucunu mənəvi və maddi dünyaların kəsişməsi barədə düşünməyə vadar edir. Bu baxımdan yanaşaraq deyə bilərik ki, Ted Çanın üslubu adi fantastik üslub deyil, "elm və həyat"ın bir növ qaynağının tapılmasına həsr olunan, qarışıq hisslər oyatmağa səbəb olan tapmacadır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Chiang Ted. Internet Speculative Fiction Database (Summary Bibliography). Retrieved October 4, 2012.
2. Chris Swoyer. "The Linguistic Relativity Hypothesis". Stanford. Encyclopedia of Philosophy, 2003.
3. Çan Ted. Sənin həyat tarixçən –Bakı: "Elm və təhsil", 2018.
4. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası, I cild- Bakı: "Şərq-Qərb", 2014, 400s.
5. Gary Blake and Robert W. Bly, The Elements of Technical Writing - New York: "Macmillan Publishers", 1993.
6. Huang Betsy.. Popular Genres and New Media. In The Cambridge Companion to Asian American Literature. Edited by Crystal Parikh and Daniel Y. Kim- Cambridge: "Cambridge University Press", 2015.
7. Lavender Isiah, III.. Race in American Science Fiction – Bloomington: "Indiana University Press", 2011.
8. Soltanova R. Azərbaycan ədəbiyyatında elmi-fantastik janr /Avtoreferat, Bakı: 2010, 28 s.

9. Steele Allen, "Hard Again", The New York Review of Science Fiction 4.46, 1992
10. Vint Sherryl. Notes and Correspondence: Suggested Further Readings in the Slipstream. Science Fiction Studies 38.1, 2011.
11. https://www.mdpi.com/2077-1444/11/2/56/htm
12. https://post45.org/2014/11/melancholy-transcendence-ted-chiang-and-asian-american-postracial-form/#footnote_4_5487

**Sebriyye İsmizade**

**Summary**

**Science fiction in Ted Chiang`s "Story of your life"**

Ted Chiang is an American science fiction writer. He writes in the 'hard' type of science fiction genre, in which it is concerned with the form of imaginative literature that uses either established or carefully extrapolated science as its backbone. This article devotes the main aspects of Ted Chiang's literary legacy and the descriptive analysis of his writing style. In his outstanding work "Story of Your Life" he tries to show a linguist's life story through the point of time factor and the language of heptapods. The protagonist learns the language of heptapods and this factor changes her life view.

**Сабрия Исмизаде**

**Резюме**

**Научная фантастика в повести Тэеда Чана «История твоей жизни»**

Тэд Чан - американский писатель-фантаст пишет в жанре научной фантастики "жесткого" типа, в котором речь идет о форме художественной литературы, в основе которой лежит либо установленная, либо тщательно экстраполированная научная гипотеза. Статья посвящена основным аспектам литературного наследия Тэда Чана и описательному анализу его стиля письма. В своем наиболее популярном произведении "История твоей жизни" автор пытается показать историю жизни лингвиста в фокусе бинарности фактора времени и языка гептаподов. Главный герой изучает язык гептаподов, и этот фактор кардинально меняет его мировоззрение.

*Rəyçi: fil.f.d.G.Hüseynli*

*Redaksiyaya daxil olub: 25.06.2020*